BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sikalastic® Primer FPO

FPO Membranlan üçün Xüsusi Poliüretan Astar Məhlulu

## TƏSVİR

Sikalastic® Primer FPO, tək komponentli, sarımtıl şəffaf, sintetik polimer solvent tərkibli astar məhluludur. Xüsusi ilə Sika® poliüretan tərkibli məhsulların FPO membranlar üzərinə yapışması və tətbiq edilməsi üçün hazırlanmışdır.

## İSTİFADƏ YERLƏRİ

Sikalastic® Primer FPO yalnız təcrübəli peşəkarlar tərəfindən istifadə olunmalıdır.

- Sikalastic® poliüretan tərkibli izolyasiya materiallarının Sarnafil® T seriyalı membranlarında
- 3 ilini doldurmamış Sarnafil® TG -66, Sarnafil® TS -77 membran üzərinə örtük tətbiqlərində
- Sika® Poliüretan  məhsullarının FPO membranlarına adgeziyası üçün

## ÜSTÜNLÜKLƏRİ

- Tək komponentli, istifadəyə hazır
- FPO Membranlar və poliüretanlar üçün xüsusi həll
- Sürətli qurumalı,1 saat sonra tətbiqə uyğunluq

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Sintetik polimer |
| **Qablaşdırma** | 1000ml aliminium qablaşdırma, 4 ədədli karton qutu |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 9 ay. |
| **Saxlama Şərtləri** | Məhsul orijinal, açılmamış və zədələnməmiş möhürlənmiş qablaşdırmada quru şəraitdə +5 °C ilə +30 °C arasında olan temperaturda düzgün saxlanmalıdır. Daha yüksək saxlama temperaturu məhsulun saxlama müddətini azalda bilər, daha ətraflı məlumat üçün Təhlükəsizlik məlumat vərəqinə müraciət edin. |
| **Görünüş və rəng** | Sarımtıl şəffaf maye. |
| **Sıxlığı** | ~0.87 kg/l (23 °C-də) |
| **Özlülük** | 20–30 mPas (20 °C-də) |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Sərfiyyat** | Tək qat olaraq  70–140 ml/m2 istifadə edilir. |
| **Ətraf mühit temperaturu** | +10 °C min. / +30 °C maks. |
| **Nisbi hava rütubəti** | 80 % nisbi rütubət maks. |

| | |
|---|---|
| **Şeh Düşmə temperaturu** | Səthin və tətbiq təbəqəsinin temperaturu şeh düşmə temperaturundan 3°C yüksək olmalıdır. |
| **Səthin temperaturu** | +10 °C min. / +30 °C maks. |
| **Səthin nəmlilik miqdarı** | Görünən nəm və kondensasiya olmamalıdır. |

**Növbəti qat üçün gözləmə müddəti**

| Temperatur | Minimum gözləmə müddəti | Maksimum gözləmə müddəti |
|---|---|---|
| 10 °C | 60 dəqiqə | 24 saat |
| 20 °C | 30 dəqiqə | 24 saat |

Qeyd: 24 saatdan çox zaman keçərsə təkrar tətbiq edilməlidir.
Vaxtlar təxminidir və dəyişən mühit şəraiti, xüsusilə temperatur və nisbi rütubətdən təsirlənəcəkdir.

# MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

# DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Nəm havada və ya yaş səthlərə tətbiq etməyin.
- Sikalastic® Primer FPO-dan yalnız detallar üçün istifadə edildikdə – Sikalastic® örtükləri ilə birlikdə müəyyən ətraf mühit məhdudiyyətləri tətbiq olunur.
- Tərs dam sistemlərində istifadə etməyin.
- Detal sızdırmazlığı tətbiqlərində istifadə edərkən müvafiq materialın Texniki Məlumat Vərəqinə müraciət edin.
- Uzun müddət su içərisində qalma ehtimalı olan sahələrdə istifadə etməyin.
- Müntəzəm olaraq 80 °C-dən çox olan səth temperaturu məruz qalmamalıdır, bu xidmət ömrünü azalda bilər.
- Səthin temperaturunu azaltmaq üçün mümkün olan yerlərdə açıq rəngli Sikalastic® örtüklərindən istifadə edin.
- Damlar yerli standartlara uyğun olaraq maillik üçün düzgün dizayn edilməlidir, bunlar adətən 2 % və ya 1:40 kimi müəyyən edilə bilər.
- İşləyən kondisionerin hava girişlərinə yaxın sahələrdə tətbiq etməyin.

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

# TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ

Səthlər, təmiz, quru, soyulan təbəqələrdən və yağdan, kirdən, silan, silikon, siloksan tərkibli təbəqələrdən, duzlardan və zəif yapışmaya səbəb ola biləcək digər kimyəvi maddələrdən təmizlənməlidir.

### SƏTH HAZIRLIĞI

Örtük tətbiq olunacaq çox çirklənmiş köhnə membranlar ənənəvi vasitələrlə yaxşıca təmizlənməlidir. Sikalastic® Primer FPO tətbiq etməzdən əvvəl səth Sarnafil® T ilə təmizlənməli və səthi +23 °C və 50 % nisbi rütubətdə minimum 15 dəqiqə qurumağı gözlənilməlidir. Ətraf mühit temperaturundan asılı olaraq, quruma daha sürətli və ya daha yavaş ola bilər. Şübhəli şərtlərdə əvvəlcə sınaq sahəsində tətbiq edərək yoxlayın. Səthin keyfiyyəti/hazırlanması və astar cədvəli ilə bağlı ətraflı məlumat üçün müvafiq örtük məhsulunun TətbiqTəlimatlarına müraciət edilməlidir.

### TƏTBİQ

Sikalastic® Primer FPO qabını çox yaxşı çalxalayın. Solventə davamlı roller və ya fırça ilə Sikalastic® Primer FPO-nu nazik, lakin tamamilə örtücü qatını tətbiq edin. Sikalastic® Primer FPO yalnız bir dəfə tətbiq olunmalıdır. Bu tək tətbiqin adekvat və vahid örtük verməsini təmin etmək üçün diqqətli olunmalıdır. Üst örtüyü tətbiq etməzdən əvvəl astarın kifayət qədər qurumasına icazə verilməli, gözlənilməlidir (cədvəl gözləmə vaxtı / örtüyə baxın).
Xüsusi detallarda tətbiq edərkən digər materiallarla rastlaşa bilərsiniz - bunun üçün, müvafiq materialın Tətbiq Təlimatına müraciət edilməlidir. FPO membranlarının təfərrüatları haqqında ətraflı məlumat üçün membranın Tətbiq Təlimatlarına baxılmalıdır.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadədən dərhal sonra bütün alətləri və tətbiq avadanlıqlarını Tiner C ilə təmizləyin.

# YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12